

C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə "Dünya Azərbaycanlıları ulu öndər Heydər Əliyevi anır!" layihəsi çərçivəsində Gürcüstan Respublikasında geniş heyyətlə qastrol səfərindən qayıdıb.

Teatrdan AzNews.az-a verilən məlumata görə, qastrol mayın 8-12 tarixlərində reallaşıb. Səfərdə teatr Heydər Əliyevə həsr olunan "Nurlu ömrün anları" tamaşası ilə çıxış edib. Tamaşaçılar arasında Gürcüstanın dövlət və hökumət nümayəndələrinin və Azərbaycanın bu ölkədəki səfirliyinin əməkdaşları iştirak edib.

Teatrın direktoru İftixar Piriyevin AzNews.az-a açıqlamasında səfərin həyata keçirilməsində "Günəş" asossasiyasının rəhbəri Nizami Məmmədzadənin dəstəy olduğunu deyib. Səfərdə qonaqlara şair-dramaturq İftixarın H. Əliyevə həsr olunan, doqquz dilə tərcümədə nəfis kitab şəkilində çap olunan "Müstəqil vətənin memarı" poeması və "Qurtuluş dastanı" tamaşasının DVD diski hədiyyə olunub.

Qeyd edək ki, səfər Azərbaycan Televiziyası, İctimai Televiziya, Atv və Türkiyə Cümhuriyyətinin Ulusal və TRT Avaz kanalları vasitəsi ilə geniş işıqlandırılıb.